*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 87-91* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.87*

# ƏLİRZA NABDİL OXTAYIN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

**Fikrət Süleymanoğlu**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: fikret55@mail.ru

**Annotasiya.** Cənubi Azərbaycan yazarlarının Vətənin gələcək taleyi – birliyi, müstəqilliyi və inkişafı ilə bağlı fikir və düşüncələrinin araşdırılıb qiymətləndirilməsi hazırda xüsusi önəm daşıyır. Belə ki, son dövrdə Azərbaycan – İran münasibətlərinin yaratdığı yeni çağırışlar problemə daha böyük aktuallıq qazandırmaqdadır. Bu baxımdan, Cənublu yazarlar arasında marksist devrimçi düşüncəni təmsil edən, həyatı və mübarizəsi ilə İran solunun əfsanələrindən birinə çevrilmiş modernist şair Əlirza Nabdil Oxtayın (1944-1972) haqqında bəhs edilən məsələlərə baxışı ayrıca araşdırma tələb edir.
Məqalədə Ə.N.Oxtayın devrimçi bir şair kimi formalaşmasında mühüm rol oynamış amillər, eləcə də onun milli məsələlərə baxışları tədqiq edilmiş, tarixi və müasir aspektdən qiymətləndirilmişdir.
**Açar sözlər:** Əlirza Nabdil Oxtay, Cənubi Azərbaycan problemi, İranda türk dili məsələsi, milli birlik, fars şovinizmi

**Məqalə tarixçəsi:** göndərilib – 12.07.2023; qəbul edilib – 21.07.2023

# ALIRZA NABDIL OKHTAY'S SOCIO-POLITICAL OPINIONS

**Fikrat Suleymanoglu**
Doktor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: fikret55@mail.ru

**Abstract**. Researching and evaluating the ideas and thoughts of South Azerbaijani writers regarding the future fate of the Motherland, its unity, independence and development is currently of special importance. Thus, in the recent period, the new challenges created by Azerbaijan – Iran relations are giving greater urgency to the problem. From this point of view, a look at the mentioned questions about the poet Alirza Nabdil Okhtay (1944-1972), who represents Marxist revolutionary thought among Southern writers with his life and struggle, becoming one of the legends of the Iranian left with his life and struggle, requires a separate study.
The article assesses the factors that played an important role in the development of A. N. Okhtay as a revolutionary poet from a historical and modern point of view, and also studied his views on national issues.
**Keywords:** Alirza Nabdil Okhtay, the problem of South Azerbaijan, the problem of the Turkic language in Iran, Persian chauvinism

**Article history:** received – 12.07.2023; accepted − 21.07.2023

## Giriş / *Introduction*

1941-1946-cı illərdə Cənubi Azərbaycanda baş verən hadisələrdən, xüsusən də Milli Hökumətin qanla devrilməsindən sonra anadilli ədəbiyyata gələn yeni nəsillərin yaradıcılığında siyasi məzmunlu mövzuların üstünlük təşkil etməsi mübahisəsizdir. Belə ki, bu insanların bir hissəsi həm Pəhləvi rejiminin paniranizm zülmünü, həm də Milli Hökumətin Cənubda ictimai-siyasi və iqtisadi həyata gətirdiyi pozitiv dəyişimi – ana dilində təhsili, mətbuatı, teatr tamaşalarını və s. öz gözləri ilə görmüş, digər bir hissəsi isə bütün bunlar haqqında yaxınlarından canlı xatirələr eşitmişdilər. Onların arasında Ə.N.Oxtayın xüsusi yeri var.

Oxtayın həyat və yaradıcılığı barədə indiyədək istər İranda, istərsə də Azərbaycan Respublikasında xeyli sayda xatirə, elmi və publisistik məqalə dərc olunmuş, modernist bir şair olaraq onun Cənub ədəbiyyatında mövqeyi barədə qiymətli fikirlər söylənmişdir. Bununla birlikdə onu da qeyd etməliyik ki, bəzi tədqiqatçıların Oxtayın milli məsələlərlə baxışları barədə qənaətlərinin – onun millətinin hüquqları uğrunda ölümə belə getməyə hazır olan şəxs [5, s.10] kimi təqdim edilməsinin heç bir tarixi dayanağı yoxdur.

## Əsas hissə / *Main Part*

**Oxtayın siyasi fəaliyyəti.** Təbrizdə Milli Hökumətin süqutu və Pəhləvi rejiminin dəhşətli repressiyalarından sonrakı dövr İranda, o cümlədən Cənubi Azərbaycanda sol hərəkatın canlanması və öz sıralarını get-gedə gənc marksist intellektuallarla genişləndirməsi dövrü kimi də xarakterizə olunur. Təbii ki, bu canlanmanın əsas mərkəzləri universitetlər idi. Oxtayın ictimai-siyasi görüşlərinin formalaşması da məhz bu canlanmanın qaynar vaxtlarına təsadüf edir. Tezliklə solçulara qoşulan və 60-cı illər tələbə siyasi hərəkatlarında fəal iştirak edən Oxtay Tehran Universitetinin Hüquq və Siyasi Elmlər Fakültəsində təhsilini yarımçıq qoyub kütlələr arasında iş aparmaq üçün müəllim dostu ilə birlikdə Xoya gedir.

Siyasi mühacir Əhməd Xoylu həmin günləri xatırlayaraq öz müəllimi barədə bunları yazır: "Əlirzanın gəlməsi bizim məktəbdə güclü təsir qoydu. Bizim dünyagörüşümüz, necə yaşamağımız üçün bir parlaq məşəl oldu. Vətənin və vətəndaşın başqa anlamını mən və mənim yoldaşlarım ondan öyrəndik" [2, s.5].

Həmin günlərdə solçu gənclər böyük fədakarlıqla çalışır, toplumun içərisində gizli təşviqat işi aparmaqla yanaşı, həm də bölgələrdə siyasi, iqtisadi və mədəni durumla bağlı araşdırmalar edib xarakterik problemlərin təbiətini öyrənir, onların həlli yolları barədə təkliflərini hazırlayırdılar.

Əlirza həmin dövrdə Urmiya bölgəsindəki kəndlərin sosial-iqtisadi durumunun mənzərəsini aydın şəkildə canlandıran araşdırmalar aparmış, torpaq islahatı ilə bağlı gələcəkdə həyata keçiriləcək fəaliyyətlər üçün təkliflərini aydın marksist baxışla təqdim etməyə çalışmışdır. O, öz müşahidələri ilə bölgədəki zəhmətkeş kütlələrin sinifli cəmiyyətin xarakter və şərtlərindən qaynaqlanan ağır sosial-iqtisadi zülm və istismarına əlavə olaraq, milli zülm altında olduğunu da qeyd edirdi. Belə ki, şah rejiminin şovinist bir basqı ilə bölgədə əsrlər boyu iç-içə yaşamış türk və kürd xalqlarının bəzi milli fərqlərindən istifadə edərək, onların birliyinin qarşısını necə almağa çalışdığını da faş edirdi [8].

Əlirza 1966-cı ilin sonlarında Səməd Behrəngi, Bəhruz Dehqani, Kazım Səadəti və Təbrizli Manaf Fələki kimi inqilabi ruhlu milli aydınlarla sıx əlaqə qurmağa nail olur. S.Behrənginin qardaşı Əsəd Behrəngi "Qardaşım Səməd Behrangi" adlı kitabında yazır: "Əlirza Nabdil Oxtay və Manaf Fələki isə Səmədin iki parlaq kəşfi" idi" [6].

S.Behrəngi və ətrafına topladığı "yeni solçu" gənclər mətbuatın bu mübarizədə rolunu düzgün qiymətləndirdiklərinə görə, Seyid İsmail Peymandan Təbrizdə sahibi olduğu həftəlik "*Mehde Azadi*" dərgisinin "*Adineh*" adlı əlavəsinin nəşrinə icazə alırlar. Tezliklə böyük nüfuz qazanan nəşrin adı həm siyasi, həm də ədəbi dairələrdə böyük hörmətlə çəkilməyə başlayır. Belə ki, on-

lar həm də ədəbi yaradıcılıqla məşğul olurdular. S.Behrəngi, sözün həqiqi mənasında, Cənubda yeni dövr uşaq ədəbiyyatının bünövrəsini qoyur, B.Dehqani tərcümələr edir, Ə.Nabdil və M.Fələki isə ana dilində modern şeirlər yazırdılar.

Əlirza nəşrin səhifələrində ölkədəki ictimai-siyasi durumla bağlı qeydlərini də dərc etdirirdi. O, "Oxtay" təxəllüsü ilə ilk dəfə məhz "*Adineh*"də çıxış etmişdir. Nəşrin 14-cü sayında Əlirzanın paniranizm, pantürkizm, panərəbizm və panislamizmi faşizmin formaları kimi kəskin şəkildə tənqid edən, əslində isə etnosentrizmə həsr olunmuş "*Cənab Pan və onun şərtləri*" adlı məqaləsi dərc olunur. Məqalə İran şovinistləri arasında əsl tufan qoparır. Pəhləvi rejiminin dəstəyi ilə siyasi arenada yenidən fəallaşan, açıq-aydın şəkildə "ari" irqçiliyi, xüsusən də antisemitizm və antitürkizm təbliğ edən "*Hizbe Pan-İran*" (Pan-İran Partiyası) və onun orqanı olan "*Xak və Xun*" ("Torpaq və qan") məcmuəsinin təkidi ilə cəmi 17 sayı işıq üzü görmüş həftəlik bu cür yazıların qarşısının alınması məqsədilə qapanır. Oxtay məqalədə üstün irq, üstün dil, üstün din və ali inanc dövrlərinin artıq keçdiyini bildirir, ona görə də "pan"ların heç vaxt məzlum Asiya xalqlarının düyünlənmiş problemini aça bilməyəcəyini qeyd edir və onları "kukla" adlandırırdı [1].

Oxtay və inqilabçı yoldaşları 60-cı illərin sonlarından başlayaraq İranda yaranmış şəraitdə xalqı qəddar şah rejimindən xilas etmənin yeganə yolunun silahlı mübarizə olması fikrinə gəlirlər. Onların belə bir qənaətə gəlməsində, heç şübhəsiz ki, həmin dövrdə F.Kastro və E.Çeqavaranın Latın Amerikasında tətbiq etdikləri məlum partizan strategiyasının dünya sol kəsimində yaratdığı ruh yüksəkliyi də böyük rol oynamışdır.

Ona görə də Oxtay və yoldaşları "*Sazemane Çerikhaye Fədaiyane Xəlqe İran*"ın (İran Xalqının Fədai Çerikləri Təşkilatı, Fədailər) "Təbriz şöbəsi" kimi tanınan bir qrup yaradırlar. O, təşkilatın ilk bəyannamələrinin hazırlanmasında və yayılmasında da fəal rol oynayır. Bu bəyannamələr daha çox Siyahkal hərəkatı ilə bağlı idi. Belə ki, Siahkal qiyamı olaraq da bilinən bu hadisə zamanı – 10 fevral 1970-ci ildə İran Xalqının Fədai Çerikləri Təşkilatının tərəfdarlarından 13 nəfər partizan tüfəng, pulemyot və əl bombası ilə silahlanaraq Gilan meşələri yaxınlarındakı Siyahkal jandarma məntəqəsinə basqın etmişdi. Lakin qarşıdurmada partizanlardan üçü öldürülmüş, on nəfəri isə tutulub edam olunmuşdu [9].

Əlirzanın üzvü olduğu Təbriz təşkilatının ilk ciddi tədbiri isə şəhərdəki 50-ci polis bölməsinə hücum əməliyyatı olmuşdu. Fələki və qrupun digər üzvləri məntəqənin giriş qapısındakı mühafizəçini öldürüb avtomatını almışdılar.

Əlbəttə, bunlar şovinist şahın ölkədə bərqərar etdiyi status-kvonu və ağır yaşam şərtlərini dəyişdirmək, zülm və istismardan azad yeni, sosial yönlü bir cəmiyyət qurmaq üçün fərqli yol tapmağa çalışan, Oxtayın sözləri ilə desək, "həqiqətin saf qəlbindən doğulmuş" gənc inqilabçı kommunist nəslin sonuclarını düzgün hesablaya bilmədikləri müvəffəqiyyətsiz cəhdlər idi. Məhz bu "hesabsızlıq" onun növbəti əməliyyatlardan birində ağır yaralanıb həbs edilməsi və 1972-ci il martın 13-də 28 yaşında Manaf Fələki və digər 7 məsləkdaşı ilə birlikdə edam edilməsi ilə sonuclandı...

**Oxtayın ana dili və milli birlik məsələsinə baxışı**. Məlum səbəblərdən farsca təhsil almasına baxmayaraq, Oxtay şeirlərinin tamamını ana dilində yazmışdır. Amma onun M.Ə.Möcüz haqqında müəyyən suallar doğuran sözlərini xatırlamamaq olmur: "Möcüz şeirlərini Azərbaycan türkcəsində yazdı, **ancaq bu, millətçilik göstəricisi deyildir**" [2, s.125].

Bir yazarın öz əsərini doğma ana dilində yazmasına nədən millətçilik prizmasından baxılmalıdır? Oxtayın bu yanaşmasının səbəbi nədir? Ana dilində yazmaq nədən millətçilik göstəricisi olmalıdır? Heç şübhəsiz ki, bu, fikir sahibinin yaşadığı siyasi mühitin xarakterindən qaynaqlanırdı. Belə ki, Oxtayın yaşadığı mühitdə – İranda fars dilindən başqa dildə yazmaq Pəhləvilər tərəfindən artıq 40 ildən artıq idi ki, yasaqlanmışdı. Hətta ondan da öncə "Azərbaycan dilində nəşr olunan qəzetləri pantürkizm siyasətinə bağladıqlarına görə" Xiyabani Təbrizdə "Təcəddüd" qəzetini fars dilində çap etməyə məcbur olmuşdu [3, s.86].

Fikrimizcə, burada Oxtayın siyasi mənsubiyyətinə də diqqət yetirməmiz lazım gəlir. Yuxarıda qeyd edildiyi kimi, o, birmənalı olaraq marksist idi. Lakin onun dünya kommunist hərəkatında parçalanmalar nəticəsində yaranmış, revizionizmə qarşı çıxan cərəyanlardan biri –

stalinçi-maoçu topluma aid olduğu da şübhə doğurmur. Oxtay bunu heç gizlətmir də. Məsələn, "Azərbaycan və milli məsələ" adlı əsərində yazırdı: "Stalin və Mao Tszedun milli məsələnin həlli üçün çox dəyərli yollar göstərmişlər. **Onlar bizə öyrədiblər ki**, hakim millətin şovinistliyi və məhkum millətin ifrat nasionalizmi vahid ziddiyyətin iki tərəfini təşkil edir" [2, s.124]. Beləliklə o, Rza şah və oğlunun zorla farslaşdırma siyasətini və milli hüquqlar uğrunda savaşanların apardıqları asimmetrik mübarizəni eyni tərəziyə qoyurdu. Ona görə də Oxtayın milli dil ilə bağlı fikirlərinə də bu kontekstdə yanaşmaq lazım gəlir. Belə ki, "**Dil bizim üçün ölüm-dirim məsələsidir**" şüarı ilə mübarizə aparan Azərbaycan Demokrat Firqəsi və onun tərəfdarlarını mənasız və heç bir mövcud problemi həll edə bilməyən belə şüarları ortaya atmaqda və "**Azərbaycanın taleyini İrandan ayırmaqda**" [2, s.125] ittiham edirdi. O, təəssüf hissi ilə yazırdı: "Bu dövrdə siniflərarası mübarizə rədd edildi və ona qarşı çıxıldı. Buna görə də firqənin mətbuatını ancaq **milli ruhlu və azərbaycançılığı əks etdirən əsərlər işğal etdi**" [2, s.126]. Oxtay açıq-ayın şəkildə "Şairlər məclisi"ni topa tutur, onun anadilli ədəbiyyatın inkişafı üçün böyük işlər görmüş üzvlərini "bir qrup dayaz düşüncəli vəzifəpərəst" adlandırmaqdan çəkinmirdi [2, s.127].

Əslində, bəzi tədqiqatçıların qeyd etdiyi kimi, Oxtayın özünün mənsub olduğu etnosun adı ilə bağlı elmə əsaslanan bir fikri də olmamış, adı keçən əsərinin eyni səhifəsində "Azərilər", "Türklər", "Türkdilli Azəri xalqı", "Azərbaycanlılar" etnonimindən istifadə etmişdir [7].

Belə görünür ki, o, hətta SSRİ-də tətbiq olunan Lenin muxtariyyətinin deyil, baş tutmayan Stalin muxtariyyətinin tərəfdarı olmuşdur. Amma o heç fərqində də deyildi ki, daha liberal olan Lenin ideyalarının tətbiq edildiyi SSRİ-də Azərbaycan türklərinin adının zorla dəyişdirilib "azərbaycanlı" yazdırılması, Gəncənin Kirovabad, Xankəndinin Stepanakert adlandırılması və İranda eyni xalqın "azəri", qədim Urmiyanın Rızayeh adlandırılması bir medalın fərqli üzləridir. Hətta oxşar kitellər geyinən iki diktatorun – Stalin və Rza şahın ruslaşdırma və farslaşdırma siyasətlərinin formal tərəflərinə baxmayaraq, məzmunları da eyni idi.

Oxtay üçün cəhalət qaranlığına məhkum edilmiş İran cəmiyyətinin qurtuluşunun əsası sinfi mübarizə idi, ona görə də bu mübarizəni dəstəkləməyən fikirləri nəinki qəbul etmir, hətta onları, sözün həqiqi mənasında, süngü ilə qarşılayır, milli birlik ideyası, müstəqillik tərəfdarlarını "Qızıl ordunun şirniyyatının başına yığılan milçək" [2, s.125] adlandırırdı.

Oxtay digər demokratik fikirləri ilə empati göstərmək bir yana, heç mənsub olduğu siyasi cərəyana ən yaxın olan sosial-demokratların İran reallıqlarına söykənən görüşlərini belə qəbul etmirdi. Məsələn, o, mənsub olduğu siyasi camiə kimi, ADF-dən fərqli olaraq, insanların özəl mülkiyyət hüququnu da tanımırdı. Ona görə də, hamının gözü qarşısında öz fitri istedadı, bacarığı və əlinin zəhməti sayəsində sıfırdan başlamaqla orta təbəqəyə yüksəlmiş solçu, ana dilinin hüquqları uğrunda mübarizəyə bayraqdarlıq edən Səhəndi solçuluğa "xəyanət"də ittiham edir, onu özəl mülkiyyəti üzərindən vurur-du: "*Cənab Səhənd başqa mənzuməsində indi Tehranın küçələrində portağal satan dağların bu nəcabətli insanına o qədər dərddaşlıq etmiş olur ki, onu tanımayan oxucu Səhəndin öz darısqal qaranlıq sexlərində həmin insanları istismar etdiyinə inana bilməz*" [2, s.127].

Guya gəncliyini zindanlarda və sürgünlərdə keçirən Səhənd öz alın təri ilə sex yaratmayıb, hansısa bir karxanaçının muzdlu, ac-yalavac işçisi olsaydı, daha yaxşı solçu olacaqdı. Amma Səhənd heç bir halda öz sol mərkəzçi əqidəsinə xəyanət etməmiş, həmin kiçik sexlərindən əldə etdiklərini "milli iş"ə sərf etməkdə ən cüzi tərəddüdə belə yol verməmişdi. Yəni Səhənd İran mühitində sahibkarlıqdan əldə etdiyi "izafi dəyər"i millətin ehtiyaclarına xərcləyən "kapitalist" olmağın "ac-yalavac təmiz solçu"luqdan daha faydalı olduğunun fərqində olmuşdur [4, s.68]...

## Nəticə / *Conclusion*

Araşdırmalar göstərir ki, Oxtay Cənubi Azərbaycanın milli dairələrində şərti olaraq "Azərbaycançı"lar, "Turançı"lar və "marksist"lər adlandırılan əsas təmayüllərdən üçüncüyə aid olmuşdur.

"Azərbaycançı"lar Şimaldakı kimi milli muxtariyyət yaradılması, kollektiv milli hüquqların (yerli özünüidarə, ana dilində təhsil, mətbuat, ictimai birliklər və s.) təmin olunması və perspektivdə – yerli və beynəlxalq şəraitin imkan verəcəyi təqdirdə Şimalla birləşib vahid, müstəqil Azərbaycan dövləti yaratma ideyasını müdafiə edirdilər. "Turançılar" "Azərbaycan" və "azərbaycanlı" sözünü nəinki qəbul etmir, hətta bunu "fars şovinizminə xidmət" adlandırırdılar. Onlar mövcud milli problemlərin "Azərbaycan" adlı qəfəsdən xilas edilib ümumtürk kontekstində – Turan müstəvisində həll olunacağı ideyasını dəstəkləyirdilər.

Oxtayın mənsub olduğu toplum – "marksist"lər ("stalinçi-maoçu"lar) isə xilas yolunu İranda proletar inqilabının qələbəsində görür və bundan sonra bütün problemlərin ümumdövlət müstəvisində həll olunacağını düşünürdülər.

Deməli, bir marksist devrimçi olaraq Oxtayın düşüncəsində nə Azərbaycanın birliyi və müstəqilliyi ideyasına, nə də ana dilinin fars dili ilə eyni hüquqlara sahib olması ideyasına yer olmamışdır.

**Ədəbiyyat / *References***


1. Maraghi, Əli Muradi. "Mehd-e Azadi, Adineh" jurnalının hətəlik dərnəyindən Təbrizin "partizan" dairəsinə. http://oyrenci-sesi.info/yeni/?p=17434
2. Oxtay, Əlirza Nabdil. Əsərləri (toplayan, transliterasiya edən: İslam Qəribli, İlham Qəribli). – Bakı: Qoliot-Qkub, 2009.
3. Pişəvəri, Mir Cəfər. Gizli imzalı məqalələr (1945-1946). – Bakı: Qanun, 2023.
4. Süleymanoğlu, Fikret. Bulut Karaçurlu Sehend'in sosyo-politik düşünceleri üzerine notlar. Vankulu Sosyal Araştırmalar Dergisi Sayı/Issue: 3 Say/ Page: 55-69, 2019. https://dergipark.org.tr/tr/download/article-file/813187
5. Talıblı, Sübhan. "Paritet", 2010, 13-14 iyul.
6. http://oyannews.com/%D8%AD%D9%84%D9%82%D9%87-
7. http://southazerbaijanisnotiran.blogspot.com/2014/01/
8. https://www.cloob.com/u/che_guevara86/11203688
9. ttps://fa.wikipedia.org/wiki/%D9%88%D8%A7%D9%82%D8%B9%


## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ АЛИРЗЫ НАБДИЛ ОХТАЯ


**Фикрет Сулейманоглу**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: fikret55@mail.ru



**Резюме.** Изучение и оценка идей и мыслей южноазербайджанских писателей относительно будущей судьбы Родины, ее единства, независимости и развития в настоящее время имеет особое значение. В последнее время новые вопросы, созданные азербайджано-иранскими отношениями, придают проблеме еще большую актуальность. С этой точки зрения взгляды на упомянутые вопросы поэта Алирзы Набдил Охтая (1944-1972), который представляет марксистскую революционную мысль среди южных писателей, своей жизнью и борьбой став одной из легенд иранских левых сил, требуют отдельного исследования.

В статье с исторической и современной точки зрения оценены факторы, сыгравшие важную роль в становлении А.Н.Охтая как поэта-революционера, а также были изучены его взгляды на национальные вопросы.



**Ключевые слова:** Алирза Набдил Охтай, проблема Южного Азербайджана, проблема азербайджанского языка в Иране, национальное единство, персидский шовинизм